***Nailə ƏSKƏR***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutunun əyani doktorantı***
***e-mail: qaracantali@live.com***

## "KOROĞLU" DASTANININ TƏŞƏKKÜL TARİXİ

**Xülasə**

Bu gün "Koroğlu" dastanı Asiya və Avropa qitələrində yaşayan bütün türk xalqlarının və onlarla qonşu olan digər xalqların şifahi irsində dərin kök salmış epik bir əsərdir. Dastanın iki böyük versiyası və beş yüzdən artıq variantı mövcuddur. Xəzər dənizinin şərqindəki mətnlər – türkmənlər, özbəklər, qaraqalpaqlar, qazaxlar, qırğızlar, uyğurlar, taciklər, Buxara ərəbləri, Sibir tatarları və başqa xalqlar arasında yayılmış, Şərq ya da Türküstan versiyası adını almışdır. Xəzər dənizinin qərbindəki mətnlər Qafqaz, Cənubi Azərbaycan, Anadolu, Krım, Qaqauziya və digər variantlarıdır. Bu variantlar da Qərb versiyası başlığı altında tədqiq edilir. Koroğlunun tarixi şəxsiyyəti və dastanın mənşəyi ilə bağlı bir-birinə zidd fikirlər çoxdur. Tədqiqatçıların bir çoxu tarixi hadisələri və coğrafi koordinatları bir araya gətirərək dastanın türklərin islam dinini qəbul etməsindən və oradan köç etməsindən əvvəl Türküstanda meydana gəldiyini iddia edir. Qərb versiyasının isə daha sonra köçlərlə yeni ərazilərə yayıldığı və variantlaşdığı fikri müdafiə edilir. Bir başqa iddia isə bu versiyanın orta əsrlərdə yerli feodallarla mübarizədə yarandığı haqqındadır.

Məqalədə "Koroğlu" dastanının hər iki versiyası və buna bağlı olan müxtəlif variantlarından bəhs olunur, tədqiqatçı və alimlərin bu epik əsərin təşəkkül tarixi haqqındakı fərqli fikirləri müqayisəli şəkildə təqdim edilir.

***Açar sözlər:*** *"Koroğlu" dastanı, tarix, variant, Goroğlu, Koroğlu, təşəkkül, türkmən, coğrafiya*

***Naila ASKAR***

## HISTORY OF FORMATION OF KOROGLU EPIC

**Summary**

The epos Koroglu is an epic work deeply rooted in the oral heritage of all Turkic peoples and other peoples living next to the Turks in Asia and Europe today. There are two large versions of the saga and more than five hundred versions. The variants east of the Caspian Sea are Turkmen, Uzbek, Karakalpak, Kazakh, Kyrgyz, Uyghur, Tajik, Bukhara Arabs, Siberian Tatars and others spread

among the peoples and was called the Eastern or Turkestan version. The options located west of the Caspian Sea are Azerbaijan, Anatolia, Crimea, Gagauz, Georgian, Armenian and others options. These options are explored under the heading Western version. There are many contradictory views on the historical identity of Koroglu and the origin of the saga. Citing historical events and geographical coordinates, he argues that the saga originated in Turkestan before the Turks converted to Islam and migrated from there there are.

The article discusses the history of the formation of both versions of the Koroglu epos and the variants associated with these versions, and compares the different views of researchers and scholars.

***Keywords:*** *Koroglu epos, history, variant, Goroglu, Koroglu, formation, Turkmen, geography*

***Наиля АСКЕР***

**ИСТОРИЯ СТАНОВЛЕНИЯ ЭПИИ “КЕРОГЛУ”**

**Резюме**

Сегодня эпос “Кероглу” – это эпическое произведение, уходящее корнями в устное наследие всех тюркских народов и других народов, живущих бок о бок с турками на континентах Азии и Европы. Есть две большие версии саги и более пятисот версий. Варианты к востоку от Каспийского моря – туркмены, узбеки, каракалпаки, казахи, киргизы, уйгуры, таджики, бухарские арабы, сибирские татары и другие распространился среди народов и получил название восточного или туркестанского варианта. Варианты к западу от Каспийского моря – это Азербайджан, Анатолия, Крым, Гагаузия, грузин, армянин и другие параметры. Эти варианты рассматриваются в разделе Западная версия. Существует множество противоречивых взглядов и мнений об исторической идентичности Кероглу и происхождении эпос. Ссылаясь на исторические события и географические координаты, он утверждает, что эпос возникла в Туркестане до того, как турки приняли ислам и мигрировали оттуда.

В статье рассматривается история формирования обеих версий эпоса “Кероглу” и связанных с ними вариантов, сравниваются различные взгляды исследователей и ученых.

***Ключевые слова:*** *эпос “Кероглу”, история, вариант, Гороглу, Кероглу, образование, туркмены, география.*

“Koroğlu” dastanı bu gün Asiya və Avropa qitələrində bütün türk xalqlarının və türklərlə qonşu olaraq yaşayan digər xalqların şifahi irsində dərin kök salmış epik əsərdir. Dastanın iki böyük versiyası və bu versiyalar daxilində beş yüzdən artıq variantı mövcuddur. Xəzər dənizindən şərqdə yerləşən variantlar türkmən, özbək, qaraqalpaq, qazax, qırğız, uyğur, tacik, Buxara ərəbləri, Sibir tatarları və s. xalqlar arasında yayılmış, Şərq yaxud Türküstan versiyası adlandırılmışdır. Xəzər dənizindən qərbdə yerləşən variantlar Azərbaycan, Anadolu, Krım, qaqauz, gürcü, erməni və s. variantlardır. Bu variantlar Qərb versiyası başlığı altında tədqiq edilir. Qərb versiyasına bağlı olan Anadolu variantları Osmanlı imperiyasının genişlənməsi nəticəsində Mərkəzi Avropaya qədər yayılmışdır. Tədqiqata cəlb etdiyimiz iki böyük variant olan Azərbaycan və türkmən variantları, demək olar ki, bütün dastanı əhatə edir. “Koroğlu” dastanının Azərbaycan versiyası dedikdə Qərb versiyası daxilində Azərbaycan variantları, türkmən versiyası dedikdə isə Şərq versiyası daxilində türkmən variantları nəzərdə tutulur.

“Koroğlu” dastanının təşəkkül yaxud təkamül prosesini analiz edərkən bunun milli dəyərlər və xalq inanc sistemi daxilində özünüdərk ilə bağlı olduğunu görürük. Bu proses mifoloji dövrdən dastana keçid dövrünü təmsil edir: “Mifoloji və fantastik xüsusiyyətləri Şərq variantlarında milli yaranış dövrü ilə əlaqədardır. Dastanın qazax, özbək, tacik variantları XVII əsrdən sonrakı dövrdən və Azərbaycan-türkmənlərindəki tarixi hadisələrdən tamamilə fərqlidir. Buna görə də dastanın bütün quruluşu dəyişmişdir” [28, s.177].

“Koroğlu” dastanın qədim köklərinin və min illərlə yaşının olduğunu düşünən alimlərin fikirləri də bu baxımdan çox maraqlıdır. T.Hacıyevin fikrinə görə, “Koroğlu” dastanında yaradılış dastanlarının elementləri qalmışdır” [13, s.243]. X.Koroğlunun fikrinə görə də, “Azərbaycan “Koroğlu” eposu öz tarixi əsaslarını daha çox qoruyub saxlamışdır” [27, s.170].

Z.V.Toğan [25, s.65] yer və şəxs adlarına əsaslanaraq dastanın təşəkkül dövrünü oğuzların (Göytürklər) Sasanilərlə Xarəzm-Astrabad bölgəsindəki münaqişələr dövrü ilə əlaqələndirmişdir. Müəllifə görə, daha sonra Orta Asiyadan Xorasana, oradan Zaqafqaziyaya və Anadoluya köç edən türklər “Koroğlu” dastanını da özləri ilə gətirmişlər. Bu fikri M.F.Körpülüzadə və Z.Gökalp da müdafiə etmişdir. Onlar da dastanın ilk variantlarının yaranmasını Göytürklər dövrü ilə səsləşməsi mülahizələrinə tərəfdar olmuşlar. Z.Gökalp “Eski Turklerde İçtimai Teşkilat İle Mantıki Tasnifler Arasında Tenazur” (“Qədim türklərdə ictimai təşkilat və məntiqi təsniflər arasındakı əzmkarlıq”) adlı yazısında Koroğlunu Sultan Mahmud Qəznəvi prototipinə, Eyvazı isə Eyaza (ad yaxınlığını əsas alaraq) bənzətmişdir [12, s.89].

“Koroğlu” dastanının mifoloji köklərinin hələ Göytürklər dövründə Orta Asiya oğuzları arasında yarandığı və yaşadığı fikriləri ilə P.N.Boratav da razılaşmışdır: “Bu nəzəriyyəyə görə, “Koroğlu” dastanı islamın türklər arasında yayılmasından əvvəl Mavərayi-Bəhri-Xəzər oğuzları arasında Oğuz-İran mübarizəsindən ortaya çıxmış, sonra islamı qəbul etmiş oğuzların Xorasandan İran, Azərbaycan və Anadoluya gəldikləri dövrdə bu ərazilərə gətirilmişdir. Sonralar özbəklərlə türkmənlərin sıx münasibətdə olduğu zamanlarda özbəklərə, onlardan da qazaxlara keçmişdir. Digər tərəfdən Anadoluda və Azərbaycanda yayılmış, şəklini dəyişmiş, yeni bir dastan mahiyyətini almışdır” [7, s.138].

“Görogly. Türkmen halk eposy” (“Goroğlu”. Türkmən xalq eposu”) kitabının 2012-ci ildəki təkrar nəşrində də yer alan “Göroglının dövri hakda bellikler” (“Goroğlunun dövrü haqqında biliklər”) [5] adlı məqaləsində A.Bek-mıradov “Ərəb Reyhan” qolundan bəhs edərkən diqqəti dastanın qədimliyinə yönəltmişdir. Müəllif Goroğlunun VII əsrin sonu – VIII əsrin əvvəlində Xəzər dənizi sahillərində ərəblərə qarşı mübarizə aparan hökmdar olduğu fikrini irəli sürmüşdür. Özündən əvvəl yaşamış eposşünas alimlərdən də nümunələr gətirərək A.Bekmıradov dastanın baş qəhrəmanı Goroğlunu tarixi qaynaqlarda, əsasən Mahmud Qəznəvi və Öğürcük Alp kimi qəhrəmanların dövründə axtarmışdır.

Türkmən alimlərinin dastanın yaranması haqqında müxtəlif fikirləri mövcud olsa da, əsasən dastanın kökünün çox qədimlərə endiyi məsələsində həmfikirdirlər. Ö.Abdıllayev “Miras, həm ixlas” adlı əsərində eposşünas A.Qovşudovun Goroğlunun IX əsrdə Sultan Mahmuda qarşı vuruşan tarixi bir şəxsiyyət və eyni zamanda əfsanəvi bir qəhrəman olduğunu qeyd etdiyini bildirir və bundan əvvəl ərəblərlə mübarizədə yaşanmış bütün qəhrəmanlıqları da Goroğlunun adına çıxıldığını deyir. Ö.Abdıllayev A.Qovşudovun bu fikri dəstəkləyən hər hansı bir dəlil göstərmədiyini yazır [2, s.55-57].

F.Köprülü 1926-ci ildə nəşr etirdiyi “Türk ədəbiyyatı tarixi” kitabının “Göktürk Dairesinin İkinci Derecedeki Menkıbeleri: Köroğlu” (“Göktürk dairəsinin ikinci dərəcədəki mənqəbələri: Koroğlu”) adlı fəslində dastanın Xəzərin şərqində bozqırlarda yaşayan oğuzlar tərəfindən yaradıldığına, oradan isə Qafqaza və Anadoluya keçdiyinə işarə edərək yazır: “Göytürk” dövrünə mənsub olub bizə qədər gələn ikinci dərəcəli mənqəbələrdən biri də “Koroğlu”dur. Oğuz türklərinin bir qismi hələ “Sasanilər”in son dövrlərində Xorasan və Maverayi-Xəzər çöllərində Xarəzm-Astrabad hüdudunda yaşayaraq “Tukiiə”lərin sərhəd keşikçiliyini edər, fürsət tapdıqca İranın içərilərində quldurluq edərdilər. ... “Koroğlu” mənqəbəsi bu çöllərdəki türklər arasında İran-oğuz mübarizələrinin bir xatirəsi olaraq hələ islamdan əvvəl ərsəyə gəlmiş, islamdan sonra oğuzların Xorasandan İran, Azərbay-

can və Anadoluya gəldikləri vaxt bu ərazilərə də nəql olunmuşdur. Bu mənqəbədə böyük və müstəqil bir hökümdarın deyil, xaqana tabe olan adi bir sərhəd tərxanının iranlılarla mübarizələrindən bəhs olunur. ... Bu uzun dövrlərdəki siyasi və ictimai təkamülün müxtəlif sahələrdə bir-birindən fərqli bir hərəkət xətti izləməsi nəticəsində təbii olaraq bu mənqəbə də bir çox dəyişikliyə məruz qalmış və onun müxtəlif variantları meydana çıxmışdır” [18, s.63].

Ə.Şamil “Koroğlu” dastanının oğuz boyu ilə Şərqdən Qərbə köç edərək gəldiyi, buradan da Kiçik Asiyada bölündüyü yol xəritəsini belə müəyyənləşdirmişdir: “Son illərdə yayınlanan nüsxələri diqqətlə incələdikdə görünür ki, oğuzların keçib gəldikləri yol “Koroğlu” dastanında eynilə təkrarlanır. Xarəzmdən başlanan yol Xorasandan, Azərbaycandan keçərək Urfa, Diyarbəkir, Van, Ərzurum, İstanbul, Malatya, Süleymaniyyə və b. bölgələri əhatə edir” [23, s.178].

Dastanın yerdəyişməsi və türk qövmlərinin köçü ilə Şərqdən Qərb istiqamətinə yayılması haqqında bir çox araşdırmaçıların fikri yekdildir. Z.V.Toğanın fikrincə isə dastanın Şərqdə təşəkkül etməsində Qərb variantlarının rolu olmuşdur [25]. O, bunu Əmir Teymur dövrünün yerdəyişmələri ilə əlaqələndirir. Bu fikir həm də ona görə maraqlıdır ki, Qərb versiyasının təkamül dövrü haqqındakı fikirlərə uyğun gəlmir. Əgər XV əsrin əvvəllərində xalq arasında “Koroğlu” dastanı belə geniş yayılmışdırsa, deməli, dastanın təşəkkül dövrünü daha qədimlərdə axtarmaq lazımdır. Bununla belə, müəllif Şərq versiyasında olan variantların qədimliyini inkar etmir və dastanın təşəkkülünün Göytürklər dövrünə qədər endiyini göstərir: “Koroğlu” dastanının türkmən rəvayətlərinin bir çoxuna Osmanlı rəvayətlərinin təsiri barizdir. Bu da Teymurun 1403-cü ildə Anadoludan gətirib Xəzər dənizinin cənub-şərq tərəfinə yerləşdirdiyi “Yaxa türkmanı” kimi sünnü qalan Anadolu xalqının və şübhəsiz, İstanbulda XVIII əsrdən bəri mətbu şəkildə yayılmağa başlayan “Koroğlu” kitablarının təsirindən irəli gəlmişdir. Bəzi mətnlərdə Koroğlu tam bir Xorasan türkmənlərinin qəhrəmanı olaraq təsvir edilmişdir. Bu qəhrəmana özbək və türkmən mətnlərində verilən “tərxan” ləqəbi buradakı ərəblər gəldiyi zaman, yəni hələ islamdan əvvəl Cürcan vilayətində hökm sürən Sol (yəni Çöl) türkmənlərinin və ibn-Fədlan zamanında (X əsrin əvvəllərində) Üst-Yurd oğuzlarının başçılarından biri olan tərxanla əlaqələndirilir. Ərəblər gələrkən Herat, Badqıs və Qarçistan məntəqələrində hakim olan Göytürk valisi Neyzək tərxan adlanırdı” [25, s.12].

Z.V.Toğanın qeyd etdiyi kimi, islam qaynaqlarında Kor-Təkin adlı tarixi şəxsiyyətin olduğu və Səlcuqlulardan əvvəl Deyhəmdə yaşadığı və Abbasilər xənədanına xidmət etdiyi göstərilmişdir [25, s.12].

M.F.Kırzıoğlunun araşdırmaları bizə "Koroğlu" dastanının qədim bir dastan olduğunu, amma dastana çox yeni və qarışıq hadisələr əlavə edildiyini deyir. Onun fikrincə, Koroğlu tarixi şəxsiyyətdir və Dədə Qorqud oğuznamələrində yer alan İç Oğuz bəylərindən Qara-Qona, yəni Qaraqoyunlular xanədanədanındandır. Müəllif dastanın bütün türk dünyasının ortaq mirası olduğunu və V əsrdə Sasani iranlılar ilə mübarizə zamanı meydana çıxdığını qeyd edir. M.F.Kırzıoğlu Koroğlu sözünün Dulqədirli türkmənlərinin iki oymağından yarandığı bildirir [15, s.195-201].

Türk ədəbiyyatı tarixinin məşhur tədqiqatçısı N.S.Banarlı "Koroğlu" dastanının tarixi haqqında fikirlərini belə qələmə almışdır: "Ehtimal ki, bu dastan əslində Göytürklər dövründəki türk-İran savaşları əsasında təşəkkülə başlamışdır. ... İslamdan əvvəlki oğuz-İran savaşlarından doğduğunu və islamdan sonra müsəlman oğuz türkləri arasında məşhur olduğunu demək mümükündür" [4, s.632].

Ş.Cəmşidov "Kitabi-Dədə Qorqud" adlı əsərində Salur Qazanı Koroğlu ilə müqayisə edərək bunların eyni şəxs ola biləcəyi ehtimalını irəli sürmüşdür. Salur Qazanın oğlu Uruz ilə Koroğlunun oğlu Eyvazın adlarının arasındakı səs oxşarlığından doğan yaxınlığı, hər iki övladın atasının tək oğlu olduğu və ailəyə bir az gec verildiyi faktlarını əsas gətirərək müəllif bu fikri bildirmişdir. Hər iki dastanda övladlar əsir düşür və bənzər şəkillərdə azad edilir [8, s.129-134].

Koroğlunun tarixi şəxsiyyəti və dastanın yaranması məsələlərində bir-birinə ziddiyyət təşkil edən bir çox fikir və mülahizələr mövcuddur. Tarixi hadisələri və coğrafi koordinatları misal gətirərək dastanın türklərin islamı qəbulundan əvvəl Türküstanda yarandığını və buradan köçlər vasitəsilə yayılaraq variantlaşdığını düşünənlərlə yanaşı, dastanın son üç-dörd əsrdə Qafqazda, yaxud Anadoluda yarandığını, Xorasan bölgəsindən baxşılar vasitəsi ilə türkmənlərə keçdiyini, buradan da Türküstanda variantlaşdığı fikrini müdafiə edənlər də vardır. "Koroğlu" dastanının təşəkkülü haqqında araşdırmaçılar arasında müxtəlif fikir və mülahizələrin yer alması, yekdil fikrin olmaması mətnlərin yayıldığı çox geniş coğrafiya nəzərə alınarsa, əsasən bölgə və variantlara əsaslanmışdır. Bu təşəkkülün ilk rüşeymlərini Göytürk-Sasani, İran-Turan, sünnü-şiə mübarizələrinə bağladıqları kimi, tarixi faktlarla Cəlalilər üsyanına da bağlayanlar vardır.

Sovet dövrü tədqiqatlarında daha çox ideoloji siyasətin təsiri ilə Cəlalilər üsyanı fikrini ön plana çıxarmaq tendensiyası geniş vüsət almışdı. Bu da daha çox qəhrəmandan sosial cəmiyyət, ədalət uğrunda vuruşan inqilabçı obrazı yaratmaq məqsədi güdürdü. Qəhrəmanın Cəlalilər üsyanında iştirak etmiş bir tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən sovet tarixçisi İ.Petruşevski olmuşdur, amma sonrakı yazılarında o öz fikrini ümumiləşdirərək bir növ bundan yayınmış kimi görünür: "Ola bilər ki, Cəlalilər hərəkatının başçılarından biri daha qədim əfsanə-

lərlə şöhrətlənmiş olan Koroğlu adını sonralar öz üstünə götürmüşdür" [29, s.85]. Bu fikir Cəlalilər hərəkatı vaxtı mübarizə aparan Koroğlu adlı bir liderin olduğunu bildirir, amma onun bu adı daha sonra xalq arasında məşhur olan dastan qəhrəmanı Koroğlunun adından alıb-almadığını dəqiq demək mümkün deyildir.

M.Təhmasib "Koroğlu" dastanının XVI-XVII əsrlərdə yaranması fikrini müdafiə etməsi ilə yanaşı, ayrı-ayrı qolların daha qədim tarixi hadisələrlə səsləşdiyini əsaslandırmışdır. Müəllif bu qolların yaranmasında yaddaşlarda yaşayan rəvayət və əfsanələrdən bəhrələnildiyini yazmışdır. M.Təhmasib daha sonra "Koroğlu" dastanının Azərbaycan variantlarının təşəkkül tarixini bir az da dəqiqləşdirərək bunu XVII əsrin əvvəllərində yaşamış baş qəhrəmanın adına bağlamışdır: "Bizdə "Koroğlu"nun bünövrəsi XVI əsrin sonu – XVII əsrin əvvəllərindəki əzəmətli kəndli hərəkatı illərində qoyulmuşdur. Özü də, heç şübhəsiz ki, indikindən çox kiçik bir dastan imiş. Əlimizdə sənədlə təsbit edəcək əsas olmasa da, biz bu fikirdəyik ki, həmin ilk "müəllif" – şair-aşıq-dastançının adı Rövşən, mənsub olduğu qəbilə ilə bağlı ləqəbi, ayaması isə Koroğlu imiş. Bizim ümumi dastan yaradıcılığı ənənəsinə sadiq qalaraq o da yüzlərlə başqaları kimi özünü öz dastanına qəhrəman etmişdir. Çox ehtimal ki, o, 1610-1630-cu illər hərəkatı iştirakçılarından, bəlkə də hətta başçılarından imiş" [24, s.150].

"Koroğlu" dastanının tarixi kökləri, yayılma arealı ilə bağlı A.Nəbiyevin fikrinə görə, dastan Zaqafqaziya məkanında yaranmış, şaxələnmiş və buradan da Türküstan coğrafiyasına keçmişdir: "Qafqaz-Anadolu versiyasının "Koroğlu" süjetinin türkmən hafizələrinə, oradan da bütün Türküstana yayılmasında mühüm rolu olmuşdur. Türkmən hafizələrinə "Koroğlu" improvizəsi bütövlükdə Azərbaycandan keçmişdir. Təbriz koroğluxanlarının repertuarını bəzəyən eposu türkmən baxşıları Türküstanda yaymış, çox keçmədən burada versiya öz yeni improvizə həyatını yaşamışdır. Baxşılar ənənəvi süjetdəki "kor edilmiş kişinin oğlunun göstərdiyi qəhrəmanlığı" gorda dünyaya gələnin qəhrəmanlıq sücaəti ilə əvəz etmişlər" [20, s.474].

P.N.Boratav dastanın ilk rəvayətlərinin Cəlalilər üsyanlarından aldığını və sonra şaxələndikcə müxtəlif motiv və epizodlarının yer aldığı qollarının Boluda yarandığını hesab edir. Müəllifin fikrincə, bu proses XVI əsrdə başlamışdır [6, s.188].

A.Təbrizlinin 1662-ci ildə yazdığı "Tarix kitabı"nda [26] XVI əsr Səfəvi hökmdarı Şah Abbasın dövründə yoxsul kəndlilər və şəhər sənətkarlarının iğtişaşından yazarkən bu üsyanın başçılarından biri olan Koroğlu haqqında da məlumat vermişdir. Bununla yanaşı, o, bu üsyana qədər də Koroğlunun ozan və nəğmələrinin çox məşhur olduğunu qeyd etmişdir. Üsyandan sonra Koroğlunun sözlərinin

və havalarının ozanlar tərəfindən daha çox oxunduğunu, qəhrəmanlıqlarının tərənnüm edildiyini, haqqında əfsanələr və dastanlar yaradıldığını yazmışdır.

"XVI əsrdə yaşamış Azərbaycan şairi Fədai, özünün dəyərli əsəri "Bəxtiyarnamə"də insanların orta əsərlərdəki ağır həyatının gerçəkliyini əks edərək onların bədbəxtliyini, həm də apardıqları təqdirəlayiq mübarizəsini vəsf etmişdir. Fədai öz poemasında Cəlalilərdən danışarkən vaxtilə kənd və şəhər zəhmətkeşlərinin hüququnun müdafiəçilərinə verilən "hərami" adından istifadə edir. XVI əsrin sonundan etibarən Cəlali adı "quldur" mənasında işlənirdi" [21, s.297].

Bundan başqa, o əsrlərdə Koroğlu adından istifadə edərək quldurluq, yolkəsənlik edən bir çox qaçağın olduğu da bilinir. "Bir kərə Koroğlunun adı çıxmış. İzi izə uydurub anasından təzən (hürküb qaçan - N.Ə), atasından küsən yolkəsən olub, Koroğlu namı alıb dağlarda haramilik edir" [7, s.252].

"Koroğlu" dastanının Şərq və Qərb versiyalarının bir-birindən ayrı, müstəqil dastanlar şəklində yarandığı və təşəkkül tarixlərinin müxtəlif ola biləcəyi fikrini bir ehtimal kimi irəli sürən İ.Abbaslı dastanın adının və əsas süjet xəttinin eyni olması haqqında isə heç bir fikir bildirməmişdir. "Deyilənlərdən belə qənaət doğur ki, "Koroğlu" eposu Azərbaycan və Kiçik Asiyada (Anadolunun şərq əraziləri) meydana gəlmiş, Xəzər dənizindən şərqdə (əsasən Orta Asiyada) yayılmış eyni adlı dastandan asılı olmayaraq yaranmışdır. Koroğlu adlı aşıq-şair həyatda olmuş, çox ehtimal ki, XVI-XVII yüzilliklərdə yaşayıb yaratmış və Cəlalilər hərəkatına qoşulmuşdur. Yaxud bu aşıq-şairin kəndli qiyamının qabaqcıl iştirakçılarından birinin adını özünə təxəllüs seçməsi həqiqətə yaxın versiya ola bilər" [1, s.319].

Aşıq Camalinin (M.Taliantsi) tərcüməsi ilə 1897-ci ildə Tiflisdə erməni dilində çap olunmuş "Koroğlunun nağılı. Giziroğlu və Bolu bəylə baş vermiş əhvalatlar" kitabının giriş hissəsində tərcüməçi Koroğlunun tarixi şəxsiyyət olduğunu bildirir və yaşadığı dövr haqqında məlumat verir: "...aşıqlar qeyd edirlər ki, o, 280-290-cı il bizdən əvvəl yaşamışdır. Bu isə İran şahı Şah Abbas və Türk hökmdarı Sultan Muradın dövrünə təsadüf edir. Koroğlunun nəğmələrində də çox yerdə onların adı xatırlanır" [17, s.2].

Nəzərə alsaq ki, Osmanlı imperatorluğuna Sultan Murad adlı bir çox hökmdar başçılıq etmişdir, onda tarixi hadisələr dolaşığa düşür və daha ciddi farktlar tələb edir. Aşıq Camalinin fikrincə, Koroğlu təxminən 1600-cü illərdə məşhurlaşmağa başlamışdır. Bu da Şah Abbasın və Sultan III Muradın və ya Sultan IV Muradın hakimiyyət illərinə yaxındır [17, s.293].

B.Qarryev və B.Məmmətyazovun birlikdə yazdığı "Göroglı" eposu" adlı məqalədə müəlliflər dastanın türkmən, Qafqaz, o cümlədən gürcü variantlarının təşəkkülündə Cəlalilər hərəkatının xüsusi rol oynadığını bildirilər. Bununla belə,

onlar dastanın təşəkkül prosesində türkmən variantlarının aparıcı rolunu da xüsusi qeyd edirlər: "Cəlalilər hərəkatı, fikrimizcə, təkcə türkmənlərin "Goroğlu"suna əsas olmayıb, həm də dastanın bütün Qafqaz variantlarının tarixi süjetlərinin meydana çıxmasına özül təşkil etmişdir. Türkmənlərlə əlaqəli hadisələr bu versiyaların məzmununda əsas rol oynayır. Bunun belə olduğuna eposun sonrakı illərdə toplanmış gürcü və rus əlifbasında nəşr olunmuş gürcü variantı da şahidlik edir. Təkə, Yomut və Cəlali qəbilələrinin Roma vilayətində yaşadığı və Goroğlunun atasının gözlərinin Şah Abbas padşahı tərəfindən oydurulduğu haqqında məlumatlar var. Uzun illər türkmən baxşıları tərəfindən böyük sevgi və coşqu ilə səslənən "Goroğlu" dastanının süjetlərinin inkişafına müasir Türkmənistanın və türkmən tayfalarının həyatı ilə əlaqəli hadisələr böyük təsir göstərmişdir" [10].

Dastanın Cənubi Azərbaycandan toplanmış qollarını Londonda nəşr etdirən A.Xodzko da dastanın yaradıcısını və baş qəhrəmanının kökünü Təkə tayfasına bağlayaraq sanki B.Qarryev və B.Məmmetyazovun fikirini təsdiq etmişdir: "Koroğlu" dastanını "Bu hekayətin qəhrəmanı Təkə tayfasından olan türkdür. Şimali Xorasanda doğulmuş, XVII əsrin ikinci yarısında yaşamışdır. Onun adı hələ İrandan Türkiyəyə gedən karvanları hücum etməyə başlamazdan əvvəl məşhur idi" [16, s.34].

P.N.Boratav dastanın təşəkkülü haqqındakı daha əvvəl söylədiyi fikirlərinə bəzi əlavələr edərək bu dövrü daha geniş zamana və əraziyə yayaraq mətnlərin müxtəlif tarixi hadisələrdən, savaş və köçlərdən bəhrələndiyini bildirmişdir: "Onun ətrafında hər mühitin yerli xürafələrinin, müxtəlif əsrlərin tarixi hadisələrinin, ehtimal ki, bir çox başqa mətnlərdəki epizodların toplandığını görürük. Türk-İran müharibələri, türkmən-qızılbaş mübarizələri, Cəlali üsyanları, hamısı Koroğlu ətrafında toplanmışdır. Özbəklər onu "sultan" təsəvvür etmişlər, Anadolu xalqı, zülm görən xalqın hamisi olan bir quldur düşündülər. Bir çox yerlər onun adını almış, digər bir çox ərazilər onun həyatı ilə əlaqədar göstərilmişdir" [7, s.19].

B.Qarrıyev ayrıca olaraq da "Koroğlu" dastanının türkmən variantlarının yaranması və təşəkkül etməsi məsələsində öz mövqeyini bildirmişdir. Onun fikrincə, dastan XVI-XVII əsrlərdə türkmənlərin və azərbaycanlıların birgə yaşadığı Cənubi Azərbaycanda meydana gəlmişdir. Dastan bu dövdə yaşamış bir xalq qəhrəmanının şəninə qoşulmuş və geniş yayılaraq şöhrət qazanmışdır. Dastanın qolları türkmənlər tərəfindən milliləşdirilmiş və vaxt keçdikcə tarixi hadisələrin müstəvisində yenidən formalaşmışdır. Yaşanan tarixi hadisələr, xüsusilə, Səfəvilərlə türkmənlərin mübarizələri sünnü-şiə mübarizəsi kimi dastanda əks olunmuşdur. Buna görə də dastanın bir çox qollarında qəhrəmanlar qızılbaşlarla mübarizə aparır: "Qəbilələr arasındakı düşmənçiliklə parçalanmış türkmən qəbilələri güclü dövlətlər arasındakı dağıdıcı müharibələrə cəlb edilirdilər, amma onlar qonşu despot-

larla mübarizə aparacaq gücə sahib deyildilər. Qonşu dövlətlər üçün Türkmənistan bölünmüş (dilimlənmiş) bir alma idi. Sonsuz səfərlər və hücumlar nəticəsində Türkmənistanın ucqar əraziləri ya İran şahının, ya Xivə xanının, ya da Buxara əmirinin iqtidarı altına girmişdi. Bu vəziyyətdə türkmənlər sadəcə bir fatehin yanında digər fatehlərə qarşı deyil, eyni zamanda öz qohumları olan türkmənlərə qarşı da döyüşlərdə və səfərlərdə iştirak etmək məcburiyyətində qalmışdılar. XVI-XIX əsrlərdə Türkmənistan ərazisinə əlavə olunan zəngin vahələrə (səhra ortasında suyu və yaşıllığı olan sahə – N.Ə.) görə feodalların mübarizələri və davam edən qəbilədaxili çəkişmələr ölkəni yıxmışdı. XVI əsrdə Səfəvi dövlətinin qurucusu Şah İsmayıl türkmən torpaqlarına dəfələrlə hücum etmişdir. İrəliləmək üçün köçəri aristokratiyasını və ruhani sinfini öz tərəfinə çəkən, onlardan dəstək alan Şah İsmayıl fanatik quruluşlu, güclü qızılbaş ordusunu qurdu" [9, s.95-96].

Səfəvilər dövlətinin Türkmənistan üçün həmişə təhlükə olduğunu bildirən B.Qarrıyev, Nadir şah və Şah Abbasın hakimiyyət illərində olan hüçüm və qəsblərin İran-türkmən münasibətlərinin daha da kəskinləşməsinə və dolayısı ilə dastanın ayrı-ayrı qollarının yaranmasına təsir etdiyini yazır: "Nadir özünə tabe olan qəbilələrdən böyük miqdarda vergi və xərac almış, bundan başqa, zorla yerli süvariləri ordusuna daxil etmişdir. Türkmən qəbilələri Nadir ilə qanlı mübarizələr apararaq, ona qarşı üsyanlara qalxaraq silahlı qarşıdurmanı davam etdirmişlər. Bu dövrdə qəbilələrin özləri su hövzələrinə, otlaqlara görə bir-birləri ilə daim müharibə vəziyyətində olmalarına baxmayaraq, bu təhlükəli fatehə qarşı tez-tez birləşmişlər. Bunlar inikasını şifahi xalq şeirində və ədəbiyyatında tapmışdır" [9, s.97-99].

S.Qarrıyev "Türkmen eposı, dessanları ve Gündogar halklarınıñ epiki döredicilıgi" ("Türkmən eposu, dastanları və Şərq xalqlarının epik yaradıcılığı") [11, s.76] adlı kitabında həm Qafqaz, həm də Türküstan coğrafiyasındakı bəzi variant və mətnləri müqayisə edərək "Koroğlu" dastanının təşəkkül prosesinin Qaraqoyunlu və Ağqoyunlu türkmənlərinin hakimiyyət dövründə başa çatdığını bildirir. Dastanın yaranma və genişlənmə məsələsinə gəlincə isə müəllif variantlarda türklərin atlı mədəniyyətinin geniş yer aldığını da əsas götürərək bəzi qolların Orta Asiyaya ərəb istilası dövrünün, bəzi qolların isə daha qədim dövrlərin izlərini daşıdığı fikrini müdafiə edir: "Goroğlu, Koroğlu haqqında dediklərimizi bir yerə cəm etsək, bu eposun bir çox xalq arasında yayılmış olduğunu, amma ilkin olaraq bir xalq, ya da bir tayfa arasında yarandıqdan sonra müxtəlif əlavələrlə çeşidləndiyini, buna görə də bir-birindən fərqli versiya və variantlarının meydana gəldiyini deməliyik" [11, s.82].

B.Məmmətyazovun dastanın genesizi, yayılması və şöhrət qazanması haqqında bir-biri ilə təzad təşkil edən fikirləri mövcuddur. Onun fikrinə görə [19, s.31-33], "Koroğlu" dastanı VIII-XVII əsrdə Cənubi Azərbaycan və Anadoluda yaşayan

türkmənlər arasında ortaya çıxmışdır. O, dastandakı hadisələrin Qaraqoyunlu və Ağqoyunlu dövrünün tarixi hadisələrinin təsiri altında yarandığı fikrini buna səbəb kimi göstərmişdir. Bundan başqa, B.Məmmətyazov həm də türkmən "Goroğlu" dastanı haqqında danışarkən süjet xəttinin əsasını ərəblərlə və iranlılarla mübarizənin təşkil etdiyini bildirmişdir [19, s.42-43].

F.Sümərin fikrincə, dastan Anadolu mənşəlidir və oradan İrana keçmişdir: "Koroğlu" dastanı XVII əsrdə İran türkləri arasında yayılaraq onlar tərəfindən də rəğbətlə qarşılandı. O dərəcədə rəğbətlə qarşılandı ki, onların milli dastanları səviyyəsinə yüksəldi. Məzhəb fərqi, qanlı hərblər Anadolu və İran türklərinin müştərək ənənə birliyini davam etdirmələrinə əngəl ola bilməmişdir" [22, s.326].

"Koroğlu" dastanın ucsuz-bucaqsız coğrafiyaya yayılması və bütün türk və türklərə qonşu olan bir çox qeyri-türk xalqların arasında məşhurlaşması onun hər hansı bir tarixi hadisəyə bağlamaqda çətinlik yaradır və müəllifin fikrincə, buna heç ehtiyac da yoxdur: "Araşdırmaçılar əsərlərində Koroğlunu Anadoludakı Cəlalilər üsyanı, Təbriz iğtişaşları, Səfəvi-Osmanlı münasibətləri, Səfəvi-özbək münasibətləri və nəhayət, Səfəvi-türkmən savaşları ilə əlaqələndirirlər. Halbuki ... Koroğlu sırf bu coğrafiyalarda deyil, digər türk boylarının yaşadığı yerlərdə və hətta qeyri-türklərin də arasında yayılmışdır. Buna görə Koroğlunun təşəkkülünü bu səbəblərə bağlamaq doğru olmaz" [14, s.751].

"Koroğlu" dastanının toplanmasına, nəşrinə, tədqiqatına başlanıldığı təxminən 200 il ərzində araşdırmaçılar, eyni zamanda dastanın təşəkkül tarixi, baş qəhrəmanın şəxsiyyəti haqqında fikir və mülahizələrini qaynaqlara əsaslanaraq bildirməyə çalışmışlar. Əslində bütün qəhrəmalıq dastanlarında olduğu kimi, "Koroğlu" dastanında da tarixilik axtarmaq, onu hansısa tarixi hadisəyə bağlamaq cəhdi tam olaraq özünü doğrultmamış və təsdiqini tapmamışdır. Unutmaq olmaz ki, "Koroğlu" dastanı özü bir tarixdir və başqa heç bir türk dastanına müəssər olmayan bir missiyanı öhdəsinə götürmüş, Şərqdən Qərbə – Sibirdən Mərkəzi Avropaya qədər bütün türkləri bir-birinə bağlamışdır. Təəssüf hissi ilə qeyd etməliyik ki, bütün türk dünyasında hələ də canlı repertuarlarda yaşayan "Koroğlu" dastanı bu günə qədər ortaq türk konseptindən təkmərkəzli olaraq tədqiq edilməmişdir. Bəzi dövrlərdə dastanın təşəkkülü, tarixiliyi haqqındakı mülahizələr ideoloji mahiyyət daşımış və bir çox hallarda bu araşdırmalar lokal xarakterdən kənara çıxa bilməmişdir. Bütün dövrlərin və zamanların fövqündə duran "Koroğlu" dastanı bu gün təşəkkül tarixindən, yaranma yerindən asılı olmayaraq unikal dəyərləri, təkrarsızlığı ilə bütün türk xalqlarının "öz" malına çevrilmişdir.

## QAYNAQLAR

1. Abbaslı, İ. Folklorşünaslıq axtarişları. İki cilddə, II cild. – Bakı: Elm, 2009. − 344 s.

2. Abdıllayev, Ö. Miras hem ixlas. − Aşgabat: Ruh, 1996.

3. Anadol, C. Köroğlu. – Ankara: Türkmen kitabevi. 1993.

4. Banarlı, N.S. Resimli Türk Edebiyatı Tarihi. Destanlar Devrinden Zamanımıza Kadar. 1. cilt. – İstanbul: Milli Eğitim Basımevi, 1983. − 640 s.

5. Bekmyradow, A. Göroglynyň döwrı hakda bellıkler // Sowet Edebiýaty žurnaly. – 1981. №11.

6. Boratav, P.N. Halk Hikâyeleri ve Halk Hikâyeciliği. − İstanbul: Tarih Vakfı Yayınları, 2002.

7. Boratav, P.N. Köroğlu Destanı. − İstanbul: Adam yayıncılık, 1984. − 261 s.

8. Cəmşidov, Ş. "Kitabi Dədə Qorqud" / red. H.Araslı; Azərbaycan SSR EA Rəyasət Heyəti Respublika Əlyazmalar Fondu. − Bakı: Elm, 1977. − 174 s.

9. Garriyev, B. Türk Dünyasında Köroğlu Anlatmaları / çev. F.Türkmen, M.Duranlı, F.Rahmankul. – Ankara: Türk Dil Kurumu Yayınları, 2007. – 190 s.

10. Garryew, B., Mämmetýazow, B. "Görogly" eposy // http://www.turkmenkultur.com/menu/ml/t7/girish.html

11. Garryýew, S. Türkmen eposy, dessanlary we Gündogar halklarynyň epiki döredijiligi. − Aşgabat, 1982. − 198 s.

12. Gökalp, Z. Eski Turkler'de İçtimai Teşkilat İle Mantıki Tasnifler Arasında Tenazur // Makaleler III (Milli Tetebbular Mecmuasındaki Makaleler) / haz. M.O.Durusoy. – Ankara: Gündüz Matbaası, 1977. − s. 17-90.

13. Hacıyev, T. "Dədə Qorqud kitabı" ilk yazılı yaddaşımızdır // Kitabi-Dədə Qorqud / tərt. Ed. S.Əlizadə. − Bakı: Öndər. 2004. − s. 4-16

14. Kaya, T.T. Köroğlu'nun Yaşadığı Coğrafya ve Türk Coğrafyasında Köroğlu Anlatıcıları // VI. Uluslararasi Köroğlu Sempozyumu "Köroğlu ve Türk Dünyası Destan Kahramanları". 10-12 Ekim 2016. Bildiri Kitabi. − İstanbul, 2016. − s.749-760.

15. Kırzıoğlu, M.F. Kars Tarihi. I. cilt. – İstanbul, 1953.− 640 s.

16. "Koroğlu" dastan: A. Xodzkonun tərtibatında 1842-ci il London nəşrinin tərcüməsi / İ.Cəfərov; red. F.Bayat; ön söz müəl. və nəşrə haz. Ə.Cəfərov. − Bakı: Çıraq, 2014. − 518 s.

17. Koroğlunun nağılı. Gizir oğlu və Bolu bəylə baş vermiş əhvalatlar / Türkcədən tərc. ed. M.Taliantsi – Aşıq Camali. I hissə. – Tiflis: Vartanyanın mətbəəsi, 1897.

18. Köprülü, F. Türk Edebiyatı Tarihi. – Ankara: Akçağ Yayınları, 2003.

19. Mämmetyazov, B. “Görogly” eposynyň döreýşi hakynda. – Aşgabat: Ylym, 1982. – 118 s.

20. Nəbiyev, A. Eposçuluğa yeni qayıdış // Azərbaycan xalq ədəbiyyatı. II hissə. – Bakı: Elm, 2006. − s. 455-487.

21. Səfərli, Ə. Yusufov, X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. – Bakı: Maarif, 1992.

22. Sümər, F. Oğuzlar (Türkmənlər). Tarixləri. Boy təşkilatı. Dastanları / çev., ön söz, qeyd və şərh. müəl. R. Əskər. − Bakı, MBM, 2013. − 448 s.

23. Şamil, Ə. Müqəddəs Ruhnamədə Koroğlu // Müqəddəs “Ruhnamə” və dünyanın ruhu genişliyi (Halklara ılml maslahatın nutuklarının qısqaca beyanı, Ruhname -2006-ncı yılın sentyabr ayının 12-13-i), − Aşgabat, 2006, − s. 174-182.

24. Təhmasib, M. Seçilmiş əsərləri. 2 clilddə II c. / elmi red. Abdullayev K. – Bakı: Kitab aləmi NPM, 2011. − 440 s.

25. Togan, Z.V. Köroğlu Destanının Bazı Eski Rivayetlerine Dair // Türk Yurdu. − 1966. №7. − s.1-4.

26. Даврижеци, А. Книга истории. Перевод, предис. и комме. Л.А.Ханларян. − Москва, 1973. − 624 с.

27. Короглу, Х.Г. Огузский героический эпос. – Москва: Изд. Наука, 1976. − 240 с.

28. Короглу, Х.Г. Взаимосвязи эпоса народов Средней Азии, Ирана и Азердбайжана. – Москва: Изд. Наука. 1983. − 346 с.

29. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-XIX вв. – Ленинград: Изд. Ленинградского Государственного Университета, 1949. − 384 с.

*Daxilolma tarixi: İlkin variant 03.02.2021*
*Son variant 26.02.2021*